# Apellyasiya Şurası

“Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə, Dövlət Miqrasiya Xidməti rəisinin müvafiq əmri ilə Dövlət Miqrasiya Xidmətinin Apellyasiya Şurası və Şuranın Katibliyi yaradılıb, onların tərkibi təsdiq edilib.

Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə yaradılan Apellyasiya Şurasına Xidmət rəisinin I müavini Vəli Nağıyev sədr təyin edilib. Yeddi nəfərdən ibarət olan Şuranın tərkibinə Xidmətin struktur bölmələrinin məsul vəzifəli əməkdaşları daxildir. Apellyasiya Şurasının Katibliyinin rəhbəri və tərkibi də təsdiq edilib. Xatırladaq ki, Apellyasiya Şurasının ilk iclası keçirilib. İclasda təşkilati məsələlər, Apellyasiya Şurasının və Şuranın Katibliyinin fəaliyyətinin effektiv qurulması, sahibkarların müraciətlərinə baxılması işində səmərəliliyin təmin edilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, qarşıda duran vəzifələr müzakirə edilib.

**Apellyasiya Şurasının tərkibi:**

- Qəhrəmanov Vahid Vaqif oğlu – Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi;
- Abdullayev İsmayıl Əli oğlu – Miqrasiya proseslərini tənzimləmə baş idarəsinin rəisi;
- Talıbov Rza Vasif oğlu - Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi;
- Xudiyev Anar Xudayar oğlu – Təşkilat-nəzarət baş idarəsinin rəisi;
- Əzimov Rəşad Rizvan oğlu – Kadrlar və kadr hazırlığı idarəsinin rəis müavini;
- Hüseynova Fəridə Arif qızı – Katibliyin rəisi.

**Apellyasiya Şurasının Katibliyinin rəhbəri:**

- Allahverdiyev Emin Valeh oğlu – Katiblik (idarə səlahiyyətli), sənədlərin qeydiyyatı və icrasına nəzarət şöbəsinin baş inspektoru.

**Apellyasiya Şurasının Katibliyinin tərkibi:**

- Ağayeva Nailə Mahir qızı - Katiblik (idarə səlahiyyətli), sənədlərin qeydiyyatı və icrasına nəzarət şöbəsinin kiçik inspektor-kargüzarı.
- **Ünvan:** Bakı şəhəri, Binəqədi rayonu, 3123-cü məhəllə, Binəqədi şossesi 202;

**Əlaqə tel:** (012) 563-57-82;

**faks:** 563-57-82;

**e-mail:** dmx.apellyasiya.shurasi@migration.gov.az